**Azərbaycan Respublikası**
**Mədəniyyət Nazirliyinin 1 aprel 2021-ci il tarixli**
**33-f nömrəli əmri ilə təsdiq edilmişdir.**

# Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin sifarişi və dəstəyi ilə nəşriyyat və çap məhsullarının istehsalı, buraxılışı və satınalınmasına dair Meyarlar

## 1. Ümumi müddəalar

1.1. Bu Meyarlar Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin (bundan – sonra Nazirlik) sifarişi və dəstəyi ilə nəşriyyat və çap məhsullarının istehsalı, buraxılışı və satınalınmasına dair tələbləri müəyyən edir.

1.2. Bu Meyarların məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.2.1. **nəşr planı** – Nazirliyin sifarişi və dəstəyi ilə bir il ərzində istehsalı və buraxılışı nəzərdə tutulan nəşriyyat və çap məhsullarının siyahısı;

1.2.2. **əlyazma** – müəllifin (müəlliflik hüququ sahibinin) və (və ya) nəşriyyatın (naşirin) nəşr planına daxil edilməsi üçün təqdim etdiyi əsərin ilkin nüsxəsi;

1.2.3. “**Nəşrlərin satınalınması müsabiqəsi”** – Nazirlik tərəfindən kitabxana fondlarını yeni nəşrlərlə zənginləşdirmək və komplektləşdirmək üçün nəşriyyat və çap məhsullarının satınalınması məqsədilə keçirilən müsabiqə.

1.3. Nəşr planının tərtibini və “Nəşrlərin satınalınması müsabiqəsi”nin təşkilini Nazirlik tərəfində yaradılan Nəşr Planının Tərtibi və Nəşriyyat Məhsullarının Satınalınması üzrə Komissiya (bundan sonra – Komissiya həyata keçirir.

1.4. Zəruri nəşrlər istisna olmaqla nəşr planına daxil edilməyən və “Nəşrlərin satınalınması müsabiqəsi”nə təqdim olunmayan nəşriyyat və çap məhsullarının istehsalı, buraxılışı və satınalınması yolverilməzdir.

1.5. Bu Meyarlarda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının “Mədəniyyət haqqında”, “Nəşriyyat işi haqqında” və “Kitabxana işi haqqında” qanunlarında və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında nəzərdə tutulmuş mənaları ifadə edir.

## 2. Nəşr planının tərtibi

2.1. Hər ilin yanvar ayında Komissiya tərəfindən son bir il ərzində təqdim olunmuş əlyazmalar və nəzərdə tutulan dövlət sifarişləri əsasında cari il üzə nəşr planı tərtib olunur.

2.2.Nəşr planı üçün prioritet mövzular və istiqamətlər aşağıdakılardır:

2.2.1. dövlət ehtiyaclarını təmin etmək üçün nəzərdə tutulan nəşrlər;

2.2.2. mədəniyyət sahəsində elmi tədqiqatların nəticələrinə dair əsərlər;

2.2.3. yüksək bədii dəyərə malik ədəbi əsərlər;

2.2.4. milli adət və ənənələr, bayramlar, tarixi rəmzlər və toponimlər barədə əsərlər;

2.2.5. Azərbaycan etnoqrafiyası və folkloru barədə əsərlər;

2.2.6. milli mədəni irsə və milli kulinariyaya aid əsərlər;

2.2.7. Ermənistanın Azərbaycana qarşı təcavüzünün mədəniyyət sahəsinə vurduğu ziyanlar, Qarabağda törədilmiş vandalizm aktları barədə tədqiqat əsərləri;

2.2.8. Vətən müharibəsinə aid yüksək məzmuna malik əsərlər;

2.2.9. uşaq musiqi, incəsənət və rəssamlıq məktəbləri üçün dərsliklər, metodik vəsaitlər və digər nəşrlər;

2.2.10. görkəmli ədəbiyyat, incəsənət və ictimai xadimlərin əsərləri və onlar haqqında araşdırmalar, monoqrafiyalar və memuarlar;

2.2.11. mədəni sərvətlərin müxtəlif istiqamətləri üzrə yeni məzmuna malik əsərlər.

2.2.12. Komissiyanın tərtib etdiyi nəşr planı Azərbaycan Respublikasının mədəniyyət naziri tərəfindən təsdiq olunur.

2.3. Təsdiq olunmuş nəşr planında nəzərdə tutulduğu ildə istehsalı və buraxılışı təmin olunmayan əsərlər növbəti ilin nəşr planına daxil edilir.

2.4. Nəşr planına xarici dillərdə (əsasən ingilis, rus, fransız, alman, ərəb) olan əsərlər də daxil edilə bilər.

## 3. Əlyazmaların nəşr planına daxil edilməsi qaydası

3.1. Əlyazmaların nəşr planına daxil edilməsinə Nazirliyə təqdim olunan müraciətlər əsasında baxılır.

3.2. Müraciətə əlyazmanın elektron variantı, plagiatlığın yoxlanılması barədə sənəd və məzmununa uyğun aidiyyəti yaradıcılıq ittifaqının və ya müvafiq sahə üzrə aidiyyəti qurumun (orqanın) rəyi əlavə olunmalıdır.

3.3. Mədəniyyət, ədəbiyyat, elm və təhsil sahələri üzrə Azərbaycan Respublikasının fəxri adına layiq görülmüş şəxslərin əlyazmalarının nəşr planına salınmasına müvafiq rəy olmadan baxıla bilər.

3.4.Təqdim olunan əlyazmalar daxilolma tarixinə əsasən Nazirliyin aparatının müvafiq struktur bölməsi tərəfindən ardıcıllıqla qeydiyyata alınaraq baxılması üçün Komissiyaya təqdim olunur.

3.5. Əlyazmalarda müəllifin (müəlliflik hüququ sahibinin) razılığı ilə elmi, ədəbi, texniki və bədii cəhətdən təkmilləşdirilmə, ixtisar, dəyişiklik, əlavə və düzəlişlər oluna bilər.

3.6. Dövlət sirlərini yaymağa, mövcud konstitusiyalı dövlət quruluşunu zorakılıqla devirməyə, yaxud dəyişməyə, ölkənin təhlükəsizliyinə, dövlətin bütövlüyünə qəsd etməyə, müharibəni, zorakılığı, milli, irqi, dini müstəsnalığı, dözülməzliyi, sosial ədavəti təbliğ etməyə, habelə pornoqrafik xarakterli və böhtan atmağa, qanun pozuntularına çağırışlara yol verən əlyazmalar qəbul edilmir.

3.7. Təkrar göndərilən əlyazmalar qeydiyyata alınmır və baxılması üçün Komissiyaya təqdim olunmur.

## 4. Nəşriyyat və çap məhsullarının istehsalı və buraxılışına dair tələblər

4.1. Geniş auditoriya üçün nəzərdə tutulan nəşrlər minimum 500 nüsxə çap olunmalıdır.

4.2. Kiçik auditoriya üçün nəzərdə tutulan nəşrlər maksimum 250 nüsxə çap olunmalıdır.

4.3.Nəşrlər formatına uyğun yüksək keyfiyyətə malik kağız növü və məzmununa uyğun xüsusi dizaynla tərtib edilməlidir.

4.4. Nəşrin hər bir nüsxəsində aşağıdakı buraxılış məlumatları olmalıdır:

4.4.1 Nazirliyin adı və loqosu;

4.4.2. nəşriyyatın və çap məhsulunu hazırlayanın adı, ünvanı;

4.4.3. buraxılış yeri və ili;

4.4.4. əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix;

4.4.5. hesab-nəşriyyat həcmi və fiziki həcmi;

4.4.6. formatı, səhifələrin sayı və kağızın tipi;

4.4.7. şiriftin növü (qarnituru), çap üsulu və tiraj;

4.4.8. beynəlxalq standart eyniləşdirmə nömrəsi;

4.4.9. müəlliflik hüququnu göstərən nişan (işarə);

4.4.10. standarta uyğun annotasiya, kitab təsnifatı göstəricisi.

4.4.11. audiovizual (və ya audio) nəşrlərdə Nazirliyin sifarişi və ya dəstəyi ilə hazırlandığı səsli şəkildə qeyd edilməlidir.

4.5. Çap olunan nəşrlərdə (kitab, albom və digər müvafiq çap məhsullarında) “pulsuz” və ya “satışı qadağandır” qeydi olmalıdır.

4.6. Bu Meyarların 4.3 – 4.5-ci bəndlərində qeyd olunan göstəricilər nəşriyyat işi üzrə malların (işlərin və xidmətlərin) satınalınması müsabiqələrində iddiaçılar üçün minimum tələb kimi irəli sürülməlidir.

4.7. Nazirliyin, müəllifin (müəlliflik hüququ sahibinin) və ya nəşriyyatın (naşirin) qarşılıqlı razılaşması əsasında nəşrlərin müəllifin (müəlliflik hüququ sahibinin) və nəşriyyatın (naşirin) vəsaiti hesabına təkrar nəşri və satışı həyata keçirilə bilər. Bu zaman Nazirliyin loqosu istifadə edilməməlidir və digər şərtlər tərəflər arasında bağlanılan müqavilə ilə müəyyən olunur.

## 5. Nəşrlərin təhvil alınması və yayımı

5.1.Nəşrlərin buraxılışı başa çatdıqdan sonra Nazirliyin aparatının müvafiq struktur bölməsi onları (elektron variantı ilə birlikdə) təhvil alır və bu barədə Azərbaycan Respublikasının mədəniyyət nazirinə məlumat verir.

5.2. Təhvil alınmış nəşrlərin reyestri aparılır.

5.3. Təhvil alınmış nəşrlər Respublika Kitabxana Kollektorunda saxlanılır.

5.4. Nazirliyin təsdiq etdiyi bölgü əsasında Respublika Kitabxana Kollektoru nəşrlərin paylanmasını təmin edir.

5.5. Nazirliyə hədiyyə olunmuş nəşrlərin yayımı bu Meyarların 5.4-cü bəndində müəyyən olunmuş qaydada həyata keçirilir.

5.6. Nəşrlərin elektron variantı açıq ictimai istifadə məqsədilə kitabxana fondlarına daxil edilə bilər.

## 6. Nəşrlərin satınalınması müsabiqəsi

6.1. Komissiya tərəfindən hər ilin fevral ayında “Nəşrlərin satınalınması müsabiqəsi” (bundan sonra – Müsabiqə) təşkil edilir.

6.2. Müsabiqənin keçirilməsi barədə Nazirliyin rəsmi saytında və digər kütləvi informasiya vasitələrində elan verilir. Elanda Müsabiqədə iştirakla bağlı müəyyən olunmuş şərtlər göstərilir.

6.3.Nəşrlər Müsabiqə elan edildiyi gündən etibarən 30 gün ərzində Komisssiyaya təqdim olunmalıdır. Müsabiqə üçün müəyyən edilmiş müddət başa çatdıqdan sonra təqdim olunan nəşrlər qəbul edilmir.

6.4.Buraxılış məlumatında qiyməti göstərilməyən nəşrlərin dəyəri onun texniki göstəricilərinə, poliqrafik keyfiyyətinə görə mövcud bazar şərtləri əsasında müəyyənləşdirilir.

6.6. Məzmun və poliqrafik baxımdan qüsurlu, ümumi tirajı 300-dən aşağı (iki və daha çox cildli olduqda hər cildin tirajı 300-dən aşağı) olan nəşrlərin satınalınmasına yol verilmir.

6.7. Müsabiqəyə xarici dillərdə (əsasən ingilis, rus, fransız, alman, ərəb) olan nəşrlər də təqdim oluna bilər.

6.8. Müsabiqə zamanı kitabxana və oxucuların tələbatına əsasən xarici ölkə nəşriyyatlarından nəşrlərin (xüsusən elmi nəşrlər) satınalınması həyata keçirilə bilər.

## 7. Müsabiqədə iştirak qaydaları

7.1.Müsabiqədə Azərbaycan Respublikasının ərazisində olan və (və ya) fəaliyyət göstərən nəşriyyatlar, jurnal redaksiyaları, nəşriyyat işi ilə məşğul olan poliqrafiya müəssisələri, digər hüquqi şəxslər və müəlliflər (müəlliflik hüququ sahibləri) iştirak edə bilərlər.

7.2. Müsabiqədə iştirak etmək istəyən müəlliflər (müəlliflik hüququ sahibləri) vergi ödəyicisinin eyniləşdirmə nömrəsinə sahib olmalı və ya müəllifi (müəlliflik hüququ sahibi) olduqları nəşrləri çap olunduğu nəşriyyatlar vasitəsilə təqdim etməlidir.

7.3. Müsabiqə elan edildiyi gündən etibarən bu Meyarların 7.1-ci bəndində qeyd olunan şəxslər tərəfindən Komissiyaya ünvanlanmış müraciət və müraciətdə satınalınması göstərilən nəşrdən 2 nüsxə Azərbaycan Milli Kitabxanasına təqdim olunur.

7.4. Müsabiqəyə son bir ildə çap olunan nəşrlər təqdim olunmalıdır.

## 8. Müsabiqəyə təqdim olunan nəşrlərin satınalınması qaydası

8.1. Müsabiqə başa çatdıqdan sonra Komissiya 1 ay ərzində təqdim olunan nəşrlərin dəyərləndirilməsini aparır və satınalınması qərararlaşdırılan nəşrlər barədə yekun protokol tərtib edir.

8.2.Yekun protokol Azərbaycan Respublikasının mədəniyyət naziri tərəfindən təsdiq olunur.

8.3. Təsdiq olunmuş yekun protokola əsasən nəşrlərinin satınalınmasına qərar verilmiş iştirakçılarla satınalma müqaviləsi bağlanılır. Satınalma müqavilə üzrə hesablaşmalar bank hesabına köçürmə yolu ilə təhvil-təslim aktı imzalandıqdan sonra həyata keçirilir.

## 9. Yekun müddəalar

9.1. Yalnız Nazirliyin sifarişi ilə hazırlanan əsərlər üçün müəlliflərə qonorar ödənilir. Nazirliyin dəstəyi ilə çap olunan əlyazmalar üçün qonorar nəzərdə tutulmur.

9.2. Nazirliyin dəstəyi ilə çap olunan nəşrdən müəllifinə (müəlliflik hüququ sahibinə) maksimum 50 nüsxə hədiyyə oluna bilər.

9.3. Müsabiqəyə təqdim olunan nəşrlərdən minimum 40 nüsxə alınmalıdır.

9.4. Müsabiqəyə təqdim olunan nəşrlərin nümunə nüsxələri geri qaytarılmır və Azərbaycan Milli Kitabxanasına təhvil verilir.

9.5. Komissiya tərəfindən nəşrlərin dəyərləndirilməsi zamanı kitabxanaların təqdim etdiyi oxucuların sorğu kitabçasına əsasən hazırlanmış statistik məlumatlar nəzərə alınır.